# İrsin idarəedilməsi üzrə təlimə start verildi

**Maddi və qeyri-maddi irsin qorunması istənilən cəmiyyət üçün əhəmiyyət daşıyır. Milli mənliyin dərk edilməsində, çoxmillətli ölkələrdə harmoniyanın təmin olunmasında və saxlanılmasında, ən əsası, qloballaşmanın izini itirməyə çalışdığı mədəniyyət və submədəniyyət nümunələrinin gələcək nəsillərə çatdırılmasında maddi və qeyri-maddi irsin önəmi çox böyükdür. Azərbaycanda da bu sahəyə güclü dövlət qayğısı var və oktyabrın 13-də "İrsin idarəedilməsi bacarıqlarının inkişafı" təlim proqramının təşkil edilməsi bu diqqətin təzahürüdür.**






Qeyri-maddi mədəni irs konsepsiyası UNESKO-nun 2003-cü ildə Parisdə keçirilən 32-ci sessiyasında qəbul edilib və 2006-cı ildə qüvvəyə minən "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiya ilə tənzimlənir. Konvensiyaya qoşulan hər bir dövlət öz ərazisində olan qeyri-maddi mədəni irsin qorunmasını təmin etmək üçün zəruri tədbirlər görməli, icmaların, qrupların və müvafiq qeyri-hökumət təşkilatlarının iştirakı ilə həmin irsin müxtəlif elementlərini eyniləşdirməli və müəyyən etməlidir. Azərbaycan 2006-cı ildə sözügedən konvensiyaya qoşulub. Sayca 4-cü təlim kursunun mövzusu da UNESCO-nun bu konvensiyası idi. Təlim Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının tərəfdaşlığı ilə "Qlobal Kommunikasiyalar və İnnovasiyalar" şirkəti tərəfindən təşkil olunub.

Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının İdarə heyətinin sədri Vasif Eyvazzadə təlim kursunun açılışını edərək, "İrsin İdarəedilməsi Bacarıqlarının İnkişafı" təlim proqramı çərçivəsində əvvəlki kurslar haqqında məlumat verdi. Qeyd etdi ki, dünya irsi ilə bağlı 3 təlim kursu artıq başa çatıb. Bu təlim kursları 1954-cü il Haaqa konvensiyası, münaqişələr zamanı mədəni irsin qorunması ilə bağlı olan konvensiya, 2005-ci il mədəni müxtəlifliyin qorunması və dünya irsi ilə bağlı konvensiyaları əhatə edirdi.

Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva Azərbaycandan UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına 15 nümunənin daxil edildiyini diqqətə çatdıraraq bildirdi ki, konvensiya məzmun və fəaliyyət baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan rəsmən bu konvensiyaya qoşulduğu andan UNESCO-da aktiv fəaliyyət göstərib və bir sıra layihələrə dəstək olub. Bu il yeni nominasiyaların siyahıya daxil ediləcəyini bildirən nazir müavini dedi ki, Azərbaycan bu sahədə Türkiyə ilə sıx əməkdaşlıq edir və belə təlimlər bacarıqların inkişaf etdirilməsinə, qurumlar arasında əlaqələrin yaradılmasına və mütəxəssislərin yetişməsinə öz töhfəsini verir.

Qeyd edək ki, təlim keçmək üçün Türkiyədən sənətşünas, İstanbul Texniki Universitetinin dosenti, doktor Aslıhan Erkmen, hüquqşünas Ahmet Aksan və Ənənəvi Sənətlər Birliyinin üzvü Sona Tomac dəvət olunmuşlar. "Azərxalça" ASC-nin İdarə Heyətinin sədri Emin Məmmədov, "ABAD" publik hüquqi şəxsin direktoru Rüfət Elçiyev qonaq çıxışçılar qismində kursda iştirak ediblər.

Təlim kursuna Mədəniyyət Nazirliyi və onun tabeliyində fəaliyyət göstərən regional idarələrin və mədəniyyət müəssisələrinin, Dövlət Turizm Agentliyinin, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, "ABAD" publik hüquqi şəxsin, Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin, Qarabağ İqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, "Şuşa" Şəhəri Dövlət Qoruq İdarəsinin, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin, Heydər Əliyev Mərkəzinin, AMEA-nın Əlyazmalar institutunun, Azərbaycan Kulinariya Mütəxəssisləri Assosiasiyasının, "Arts Council Azərbaycan" təşkilatının, Bəstəkarlar İttifaqının nümayəndələri qatılıblar.

Xatırladaq ki, Azərbaycan 1992-ci ilin iyunundan UNESCO-ya üzv qəbul olunub. 1996-cı ildə isə təşkilat ilə Azərbaycan arasında əməkdaşlıq sahəsində memorandum imzalanıb. Həmin vaxtdan etibarən BMT-nin elm, təhsil və mədəniyyət üzrə bu nüfuzlu təşkilatı ilə əlaqələrimiz genişlənməkdədir. Xüsusilə də Birinci-vitse prezident Mehriban xanım Əliyevanın Azərbaycanın qeyri-maddi mədəni irs nümunələrinin qorunması və UNESCO–Azərbaycan əlaqələrinin inkişafına göstərdiyi xidmətlər nəticəsində ölkəmiz qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəyə üzv seçilib. Bundan sonra həmin sahədə əlaqələr daha da möhkəmlənib.

**Səbuhi MƏMMƏDOV,**
**Elşən AĞALAR (foto)**
**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2022.- 14 oktyabr.- S.10.